AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirinin 3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmri ilə təsdiq edilmişdir

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

İxtisasın şifri və adı: 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)

BAKI - 2025

AZƏRBAYCAN UNİVERSİTETİ

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

______________

*Rektor S.N. Əliyeva*

MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

İxtisasın şifri və adı: 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)

İxtisaslaşma: Maliyyə

BAKI - 2025

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA)** ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Magistratura səviyyəsinin ixtisas üzrə Təhsil Proqramının Çərçivə Sənədi", qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

**1.2.** Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

**1.3.** Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

**1.4.** Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

**1.5.** Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrilə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

**2.1.** Təhsil proqramının sonunda məzun aşağıdakı ***ümumi səriştələrə*** yiyələnməlidir:

**(2 illik Təhsil Proqramı üzrə)**

• peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
• müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
• fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
• fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
• fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
• fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyrimütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
• müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
• Tədqiqat metodlarından istifadə etməklə problemləri yaradıcı və səmərəli şəkildə araşdırmaq, müqayisəli təhlillər aparmaq, nəticələri elmi əsaslandırmaq və akademik yazı üslubunda təqdim etmək;
• Akademik yazı prinsipləri və elmi etika normalarına uyğun fəaliyyət göstərmək, elmi nəticələri

əsaslandırılmış arqumentlərlə təqdim etmək;
• Nəzəri bilikləri sistemli şəkildə mənimsəmək, praktiki bacarıqları inkişaf etdirmək və bu bilikləri pedaqoji, elmi-tədqiqat və peşəkar fəaliyyət sahələrində tətbiq etmək;
• Biznes və iqtisadi problemlərin həllində iqtisadi-riyazi üsullardan və modellərdən istifadə etməklə analitik təhlillər həyata keçirmək və məlumat əsaslı strateji qərarları elmi əsaslandırmaq;
• Analitik metodlardan istifadə etməklə biznes və idarəetmə sahələrində kompleks təhlillər aparmaq və əsaslandırılmış qərarlar qəbul etmək bacarığını inkişaf etdirmək;
• Maliyyə uçotu prinsiplərini və alətlərini mənimsəyərək maliyyə məlumatlarına əsaslanan strateji və idarəetmə qərarları qəbul etmək qabiliyyəti formalaşdırmaq;
• Müasir idarəetmə yanaşmaları və idarəetmə mexanizmlərini mənimsəmək, qiymətləndirmək və qərarvermə proseslərində səmərəli şəkildə tətbiq etmək;
• Təşkilati dinamikaları təhlil etmək, dəyişiklikləri effektiv şəkildə idarə etmək və qeyrimüəyyən mühitlərdə optimal qərarlar qəbul etmək bacarığını formalaşdırmaq;
• Resurs bölgüsünü strateji və sistemli yanaşma ilə təhlil etmək və resurslardan səmərəli istifadəni təmin etmək;
• Davamlı və rəqabətli mühitdə innovativ biznes strategiyaları hazırlamaq və bu strategiyaları empirik təhlillərlə əsaslandırmaq;
• Müstəqil tədqiqat bacarıqlarını inkişaf etdirmək, müxtəlif fəaliyyət sahələrini müqayisəli şəkildə təhlil etmək və elmi əsaslı həllər təklif etmək;
• Rəqəmsal texnologiyalar və yanaşmalar əsasında rəqəmsal strategiyalar formalaşdırmaq;
• Müəssisə səviyyəsində davamlılıq və çeviklik strategiyalarını formalaşdırmaq və strategiyalar çərçivəsində strateji transformasiyanı həyata keçirmək;
• Təşkilati liderlik bacarıqlarını inkişaf etdirmək, dəyişiklikləri idarə etmək və əməkdaşlığa əsaslanan mühit qurmaq.
• İstənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
• Davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

**2.2.** Təhsil proqramının sonunda **7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) ixtisasının Maliyyə ixtisaslaşması üzrə** məzun aşağıdakı ***peşə səriştələrinə*** yiyələnməlidir:

**Maliyyə (MBA) ixtisaslaşması üzrə (1.5/2 illik Təhsil Proqramı üzrə)**

- müəssisələrdə büdcənin tərtibinə və icrasına nəzarət etmək;
- risk və gəlirlilik dərəcəsini qiymətləndirmək;
- investisiya portfelini idarə etmək;
- maliyyə hesabatlarını təhlil etməklə onlardan qərarvermə prosesində istifadə etmək;
- təşkilatın korporativ maliyyəsini idarə etmək;
- blokçeyn, süni intellekt, elektron ödəniş sistemləri və digər rəqəmsal maliyyə texnologiyalarından səmərəli istifadəyə nəzarət etmək;
- dayanıqlı və 'yaşıl' maliyyələşdirmə siyasəti prinsiplərinə əsaslanan investisiya və maliyyə strategiyaları hazırlamaq və tətbiq edə bilmək;
- beynəlxalq maliyyə və valyuta əməliyyatlarını effektiv şəkildə idarə edə bilmək;
- vergi yükünü optimallaşdırmaq üçün təkliflər vermək;
- maliyyə sahəsində qanunvericiliyin tələblərinin icrasının təmin edilməsinə nəzarət etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil roqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi ixtisas dərəcəsi:

| İxtisaslaşmanın adı | Verilən dərəcə | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| Maliyyə (MBA)** | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. Maliyyə ixtisaslaşması üzrə Təhsil proqramı 120 (2 il) AKTS kreditindən ibarət olmalıdır. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti | |
|---|---|---|---|
| 1 | **Tədqiqat metodları**[1]<br>Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur. | | 6 |
| 2 | **Akademik yazı və etika**<br>Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir. | | 6 |
| 3 | **Tədqiqat analitikası**[1]<br>Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq (“Excel”, “SPSS”, “Stata”, “R”, “MAXQDA”, “Matlab”, “Python” və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur. | | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər**[3]<br>(ixtisaslaşmadan asılı olaraq buraya daxil edilən fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında öz əksini tapır). | | 54 |
| 4 | **Liderlik və təşkilati davranış**<br>Fənnin məqsədi tələbələrə liderlik və təşkilat daxilində davranışları anlamağa kömək etməkdir. Tələbələr, liderliyin müxtəlif nəzəriyyələrini, liderlik bacarıqlarını inkişaf etdirməyi, həmçinin təşkilatların strukturu və | | 6 |

| | | | |
|---|---|---|---|
| | mədəniyyətinin iş fəaliyyətinə təsirini öyrənəcəklər. Fənnin əsas məqsədi, gələcəkdə müxtəlif təşkilatlarda liderlik rolunu daşıyacaq şəxslərin bu bilikləri tətbiq etmələrinə şərait yaratmaqdır.<br>**Fənnin məzmunu:** Liderliklə bağlı fərqli nəzəriyyələr, məsələn, xarizmatik liderlik, transformasiya və tranzaksiya liderliyi, xidmətkar liderlik və s. | | |
| 5 | **Biznes statistikası**<br>Fənnin məqsədi tələbələrə statistik metodların biznes mühitində tətbiqini öyrətməkdir. Fənn tələbələrə məlumatların toplanması, təhlili, interpretasiyası və qərar qəbul etmə prosesində statistik alətlərin effektiv istifadəsini öyrədir. Məqsəd – gələcək menecerlərin və analitiklərin elmi əsaslarla qərar qəbul etmə bacarığını inkişaf etdirməkdir.<br>Fənnin qısa məzmunu: Biznes statistikası fənni qərar qəbuletmə proseslərində statistik metodların və analitik düşüncənin tətbiqini öyrədir. Fənn biznes mühitində məlumatların toplanması, emalı, təhlili və nəticələrin interpretasiyası üsullarını əhatə edir.<br>Fənn nəzəri biliklərlə yanaşı, real biznes situasiyalarında statistik metodların tətbiqinə əsaslanır. | | 6 |
| 6 | **Menecment iqtisadiyyatı**<br>Fənnin məqsədi tələbələrə iqtisadi düşüncə tərzini formalaşdırmaq, idarəetmə qərarlarının iqtisadi əsaslarını təhlil etmə və optimallaşdırma bacarığı qazandırmaqdır. Fənn menecerlərə biznes proseslərində iqtisadi qanunauyğunluqları tətbiq etməyi, resursların səmərəli idarə edilməsini və strateji qərarların elmi əsaslarla verilməsini öyrətməyə yönəlmişdir.<br>Fənnin məzmunu:Fənn iqtisadi nəzəriyyənin prinsiplərini idarəetmə qərarlarında tətbiq etməyi öyrədir. Fənn müəssisənin fəaliyyətinə təsir edən iqtisadi amillərin təhlilini, resurslardan səmərəli istifadə üsullarını və optimal qərar qəbuletmə proseslərini əhatə edir. Əsas mövzulara tələb və təklif qanunları, istehsal və xərclər nəzəriyyəsi, bazar strukturları, qiymətqoyma strategiyaları, risk və qeyri-müəyyənlik şəraitində qərar qəbuletmə, həmçinin makroiqtisadi mühitin biznes qərarlarına təsiri daxildir. | | 6 |
| 7 | **Maliyyə uçotu (F3)**<br>Fənnin məqsədi tələbələrə müəssisənin maliyyə fəaliyyətinin düzgün uçotunu aparmaq, maliyyə hesabatlarını hazırlamaq və əldə olunan məlumatlar əsasında qərar qəbul etmək bacarığı qazandırmaqdır. Fənn MBA tələbələrini beynəlxalq uçot prinsiplərinə əsaslanaraq analitik düşünməyə, maliyyə hesabatlarını oxumağa və onların əsasında idarəetmə qərarları verməyə hazırlayır.<br>Qisa məzmunu:*Maliyyə uçotu (F3)* fənni müəssisənin maliyyə fəaliyyətinin uçotu, hesabatların tərtibi və maliyyə məlumatlarının təhlili prinsiplərini öyrədir. Fənn beynəlxalq maliyyə hesabatı standartları (BMHS/IFRS) əsasında aktivlərin, öhdəliklərin, kapitalın, gəlir və xərclərin tanınması və qiymətləndirilməsi qaydalarını əhatə edir.<br>Fənn həm nəzəri əsasları, həm də praktiki uçot bacarıqlarını formalaşdırmağa yönəlmişdir. | | 6 |

| | | | |
|---|---|---|---|
| 8 | **Strateji idarəetmə və innovasiyalar**<br>Fənnin məqsədi tələbələrdə strateji düşünmə tərzi və innovativ idarəetmə yanaşmasını formalaşdırmaqdır. Bu fənn MBA tələbələrinə müəssisənin uzunmüddətli məqsədlərinə nail olmaq üçün effektiv strategiyalar hazırlamaq, dəyişən biznes mühitində qərarvermə bacarığını inkişaf etdirmək və innovasiyaları idarəetmə sisteminə tətbiq etmə qabiliyyəti qazandırır. Fənn həmçinin tələbələrin liderlik, analitik təhlil və yaradıcı problem həlli bacarıqlarını gücləndirməyə yönəlmişdir<br>Fənnin məznunu:Fənn strateji idarəetmənin nəzəri əsaslarını, strateji planlaşdırma mərhələlərini, təşkilatların daxili və xarici mühitinin təhlilini, rəqabət strategiyalarını və innovasiyaların idarə olunmasını əhatə edir. Fənn həm nəzəri biliklərin, həm də praktiki tətbiqlərin öyrənilməsini nəzərdə tutur. | | 6 |
| 9 | **Korporativ maliyyə**<br>Fənnin məqsədi tələbələrə müəssisələrin maliyyə qərarlarının qəbul edilməsində istifadə olunan əsas prinsipləri, maliyyə idarəetməsinin məqsədlərini və korporativ dəyərin artırılmasına yönəlmiş strategiyaları öyrətməkdir. Tələbələr maliyyə planlaşdırması, investisiya qərarları, kapitalın formalaşdırılması və risklərin idarə olunması sahəsində analitik düşünmə və qərarvermə bacarığı qazanırlar.<br>Fənnin məzmunu:Fənn korporativ maliyyənin əsas anlayışlarını, maliyyə idarəetməsinin funksiyalarını, kapitalın qiyməti və strukturu, investisiya layihələrinin qiymətləndirilməsi, dividend siyasəti, risk və gəlirlilik anlayışlarını əhatə edir. Həmçinin, maliyyə bazarları, korporativ borclanma, birləşmə və satınalmalar, maliyyə təhlili və strateji maliyyə qərarları kimi mövzular da tədris olunur. Fənn real biznes nümunələri və maliyyə modelləri üzərində praktiki yanaşmanı təmin edir. | | 6 |
| 10 | **İnvestisiya və maliyyə strategiyaları**<br>Fənnin məqsədi tələbələrə investisiya qərarlarının qəbul edilməsi və maliyyə strategiyalarının hazırlanması prosesində nəzəri və praktiki biliklər qazandırmaqdır. Fənn tələbələrdə kapitalın səmərəli bölüşdürülməsi, risk və gəlirlilik arasında optimal tarazlığın yaradılması, həmçinin uzunmüddətli maliyyə sabitliyinin təmin edilməsi üçün strateji düşünmə bacarığını formalaşdırır<br>Fənnin məzmunu:Fənn investisiya fəaliyyətinin mahiyyətini, investisiya layihələrinin qiymətləndirilməsi üsullarını, risklərin idarə olunması metodlarını və kapital bazarlarında strateji qərarların qəbul edilməsini əhatə edir. Eyni zamanda, müəssisələrin maliyyə strategiyalarının planlaşdırılması, maliyyə resurslarının cəlb edilməsi, portfel investisiyalarının idarə olunması və innovativ maliyyə alətlərinin tətbiqi məsələlərinə diqqət yetirilir. Fənn həm nəzəri əsasları, həm də real biznes nümunələri ilə praktiki bacarıqları birləşdirir. | | 6 |
| 11 | **Rəqəmsal maliyyə texnologiyaları**<br>Fənnin məqsədi tələbələrə rəqəmsal texnologiyaların maliyyə sektorunda tətbiqi, maliyyə xidmətlərinin transformasiyası və innovativ maliyyə alətlərinin inkişafı barədə bilik və bacarıqlar qazandırmaqdır. Fənn tələbələrdə rəqəmsal maliyyə sistemlərinin işləmə prinsiplərini anlama, maliyyə texnologiyalarını (FinTech) tətbiqetmə və rəqəmsallaşmanın iqtisadi və hüquqi təsirlərini qiymətləndirmə bacarığı formalaşdırır<br>Fənnin məzmunu:Fənn rəqəmsal maliyyə texnologiyalarının mahiyyətini, FinTech ekosisteminin quruluşunu, kriptovalyutalar və blokçeyn texnologiyasının maliyyə əməliyyatlarında rolunu, rəqəmsal | | 6 |

| | | | |
|---|---|---|---|
| | ödəniş sistemlərini və elektron bankçılıq modellərini əhatə edir. Fənn nəzəri yanaşmalarla yanaşı, rəqəmsal transformasiya dövründə maliyyə idarəetməsinin praktik aspektlərini də əhatə edir. | | |
| 12 | **Beynəlxalq maliyyə kredit münasibətləri**<br>Fənnin məqsədi tələbələrə beynəlxalq maliyyə sisteminin fəaliyyət prinsiplərini, qlobal maliyyə bazarlarının quruluşunu və beynəlxalq kredit münasibətlərinin iqtisadi mexanizmini öyrətməkdir. Fənn tələbələrdə beynəlxalq kapital axınlarını təhlil etmək, valyuta və kredit siyasətlərini qiymətləndirmək, eləcə də beynəlxalq maliyyə institutlarının rolunu anlama bacarığını formalaşdırır.<br>Fənnin məzmunu:Fənn beynəlxalq maliyyə münasibətlərinin nəzəri əsaslarını, dünya maliyyə sisteminin strukturu və inkişaf meyillərini, beynəlxalq kredit bazarlarını və onların iştirakçılarını əhatə edir. Fənn həm nəzəri bilikləri, həm də beynəlxalq maliyyə əməliyyatları üzrə praktiki bacarıqları inkişaf etdirməyə yönəlmişdir. | | 6 |
| ... | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** [4]<br>(Müvafiq fənlər hər bir ali təhsil müəssisəsi tərəfindən fərdi qaydada ixtisaslaşmadan asılı olaraq müəyyən edilir və həmin ixtisaslaşmanın təhsil proqramında əksini tapır.) | | 18 |
| 13 | **-Qiymətli kağızlar bazarı**<br>Fənnin məqsədi tələbələrə qiymətli kağızlar bazarının iqtisadi mahiyyətini, fəaliyyət mexanizmini və onun maliyyə sistemindəki rolunu öyrətməkdir. Fənn tələbələrdə kapital bazarlarının strukturunu anlama, investisiya qərarlarının qəbul edilməsində qiymətli kağızların qiymətləndirilməsini həyata keçirmə və bazar risklərini təhlil etmə bacarığını formalaşdırır<br>Fənnin məzmunu:Fənn qiymətli kağızlar bazarının nəzəri və praktiki əsaslarını, səhmlər, istiqrazlar, törəmə maliyyə alətləri (fyuçers, opsion, svop) və investisiya fondlarının fəaliyyət prinsiplərini əhatə edir. ənn həm yerli, həm də beynəlxalq qiymətli kağızlar bazarının inkişaf tendensiyalarını nəzərdən keçirərək praktiki təhlil imkanları yaradır.<br><br>**-Maliyyə bazarları**<br>Fənnin məqsədi tələbələrə maliyyə bazarlarının iqtisadi sistemdəki rolunu, funksiyalarını və fəaliyyət mexanizmini öyrətməkdir. Fənn tələbələrdə maliyyə axınlarının idarə edilməsi, kapitalın səmərəli bölgüsü, bazar risklərinin təhlili və investisiya qərarlarının qəbul edilməsində analitik düşünmə bacarığını formalaşdırır.<br>Fənnin məzmunu:Fənn maliyyə bazarlarının mahiyyəti, strukturu və növləri (pul bazarı, kapital bazarı, valyuta bazarı, törəmə alətlər bazarı) barədə biliklər verir. Həmçinin maliyyə vasitəçilərinin rolu, faiz dərəcələrinin formalaşması, qiymətli kağızların dövriyyəsi, maliyyə bazarlarının tənzimlənməsi və beynəlxalq maliyyə inteqrasiyası kimi mövzular əhatə olunur. Fənn nəzəri biliklərlə yanaşı, real bazar proseslərinin təhlilini və müasir maliyyə alətlərinin tətbiqini də əhatə edir. | | 6 |
| 14 | **-Vergi və vergiqoyma**<br>Fənnin məqsədi tələbələrə vergi sisteminin mahiyyəti, prinsipləri və vergiqoyma mexanizmləri haqqında dərin nəzəri və praktiki biliklər verməkdir. Fənn tələbələrdə dövlətin maliyyə siyasətində vergilərin rolunu anlama, vergi siyasətinin iqtisadi inkişafa təsirini qiymətləndirmə | | 6 |

| | | | |
|---|---|---|---|
| | və səmərəli vergiqoyma strategiyalarını formalaşdırma bacarığını inkişaf etdirir.<br>Fənnin məzmunu: Fənn vergi anlayışını, vergi sisteminin quruluşunu, vergiqoymanın prinsiplərini, vergi növlərini və onların iqtisadi funksiyalarını əhatə edir. Mövzulara həmçinin vergi inzibatçılığı, vergi siyasətinin dövlət büdcəsinə və iqtisadi artıma təsiri, beynəlxalq vergi münasibətləri, rəqəmsal iqtisadiyyatda vergiqoyma və vergi tənzimlənməsi problemləri daxildir. Fənn nəzəri əsaslarla yanaşı, real vergi praktikaları və milli vergi sisteminin təhlilini də özündə birləşdirir.<br><br>**- Maliyyə risklərinin idarə edilməsi**<br>Fənnin məqsədi tələbələrə maliyyə risklərinin mahiyyətini, onların təsnifatını və idarə olunması üsullarını öyrətməkdir. Fənn tələbələrdə risklərin qiymətləndirilməsi, idarəetmə strategiyalarının hazırlanması və maliyyə sabitliyinin qorunması istiqamətində analitik və strateji düşünmə bacarığı formalaşdırır.<br>Fənnin məzmunu:Fənn maliyyə risklərinin növlərini (bazaar, kredit, likvidlik, valyuta və əməliyyat riskləri), onların yaranma səbəblərini və idarəetmə metodlarını əhatə edir. Mövzulara risklərin identifikasiyası və ölçülməsi, hedcinq alətləri, sığorta mexanizmləri, törəmə maliyyə alətlərinin tətbiqi, risklərin modelləşdirilməsi və beynəlxalq təcrübə əsasında risklərin tənzimlənməsi prinsipləri daxildir. Fənn həm nəzəri biliklər, həm də praktiki risk idarəetmə yanaşmalarını özündə birləşdirir. | | |
| 15 | **-Maliyyə hesabatlarının beynəlxalq standartları (MHBS)**<br>Fənnin məqsədi tələbələrə beynəlxalq maliyyə hesabatı standartlarının (IFRS/MHBS) mahiyyətini, məqsədlərini və tətbiq mexanizmini öyrətməkdir. Fənn tələbələrdə beynəlxalq mühasibat prinsiplərinə əsasən maliyyə məlumatlarının düzgün tərtibi, təqdimatı və təhlili bacarıqlarını formalaşdırmaqla, onların qlobal biznes mühitində fəaliyyətini asanlaşdırır.<br>Fənnin məzmunu:Fənn MHBS-in yaranma tarixi, məqsədi və prinsiplərini, maliyyə hesabatlarının strukturu və tərkibini (balans hesabatı, mənfəət və zərər hesabatı, pul axınları hesabatı və s.) əhatə edir. Mövzulara gəlirlərin tanınması, aktivlərin və öhdəliklərin qiymətləndirilməsi, ədalətli dəyər anlayışı, konsolidasiya prinsipləri, lizinq, maliyyə alətləri, ehtiyatlar və təqdimat tələbləri daxildir. Fənn həmçinin yerli mühasibat standartları ilə MHBS arasında fərqlərin müqayisəli təhlilini və beynəlxalq təcrübədə tətbiq nümunələrini əhatə edir.<br><br>**-Audit ( ACCA tələbi)**<br>Fənnin məqsədi tələbələrə beynəlxalq audit prinsiplərini və ACCA (Association of Chartered Certified Accountants) standartlarına uyğun auditin aparılması metodologiyasını öyrətməkdir. Fənn tələbələrdə maliyyə hesabatlarının düzgünlüyünü qiymətləndirmə, daxili nəzarət sistemlərini təhlil etmə və beynəlxalq audit tələblərinə əsasən peşəkar rəy formalaşdırma bacarığını inkişaf etdirir.<br>Fənnin məmunu:Fənn auditin mahiyyəti, məqsədi və növləri, beynəlxalq audit standartları (ISA-lar), audit planlaşdırılması və risklərin qiymətləndirilməsi, sübutların toplanması və sənədləşdirilməsi, daxili nəzarət sisteminin qiymətləndirilməsi, səhvlərin və saxtakarlıqların aşkarlanması prinsiplərini əhatə edir.Həmçinin ACCA tələblərinə uyğun etik normalar, peşəkar məsuliyyət, müstəqillik və audit hesabatının | | 6 |

| | | | |
|---|---|---|---|
| | formalaşdırılması qaydaları da öyrədilir. Fənn beynəlxalq praktikaya əsaslanan təhlillər və real audit nümunələri ilə dəstəklənir. | | |
| **Təcrübə** | | | |
| 16 | **Elmi-pedaqoji təcrübə** | | 6 |
| 17 | **Elmi tədqiqat təcrübəsi**[5] | | 6 |
| **Dissertasiya işi** | | | |
| 18 | **Magistrlik dissertasiyası**[6] | | 18 |
| **CƏMİ** | | | **120** |

---

[1] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[2] Bu fənn magistrlik dissertasiyası ilə tamamlanmayan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

3 Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir və müvafiq ixtisaslaşma üzrə qəbul olan təhsilalan üçün məcburi xarakter daşıyır. Bu bölmədə minimum 4 fənn olmalıdır.

4.Burada "fənlər" dedikdə fənlərlə yanaşı, layihələr (eləcə də "Capstone" layihəsi), yaradıcılıq işi, laboratoriya işləri və digər aidiyyəti tədris fəaliyyətləri (olduğu təqdirdə) başa düşülür. Bu fənlər akademik heyətin təcrübəsi, tədqiqat infrastrukturu, yerli və beynəlxalq iş imkanları nəzərə alınaraq ali təhsil müəssisəsi tərəfindən təklif edilir. Sözügedən fənlər müəyyən edilən zaman əmək bazarının təklifləri də nəzərə alınır və bu məqsədlə ali təhsil müəssisələri və əmək bazarı nümayəndələrindən ibarət işçi qrupunun yaradılması tövsiyə olunur. Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər təhsilalanlar üçün seçmə xarakter daşımalı, eləcə də təhsilalanların xarici mübadilə proqramlarında iştirakına şərait yaratmalıdır. Bu bölmədə minimum 3 fənn olmalıdır.

[5] Bu təcrübə növü magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslaşmalar üçün nəzərdə tutulmuşdur.

[6] Magistrlik dissertasiyası ilə tamamlanan ixtisaslar (ixtisaslaşmalar) üçün nəzərdə tutulmuşdur. Magistrlik dissertasiyasının məzmununa, yazılmasına, təqdim edilməsinə və müdafiəsinə qoyulan tələblər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.
4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.
4.3. Ixtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisinde (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.
4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

- professor-müəllim və tədris köməkçi heyəti;
- zəruri avadanlıqla təchiz olunmuş auditoriya;
- kompüter otağı və internetdən istifadə imkanları;
- elmi-tədris laboratoriyası;
- təcrübələrin keçirilməsi üçün baza müəssisələri;
- elmi kitabxana;
- akademik və peşəkar elektron məlumat bazalarına çıxış imkanı.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur, elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər;
5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. 7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) proqramı üzrə Maliyyə (MBA) ixtisaslaşması üzrə
məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləyə biləcəklər:

- Maliyyə direktoru;
- Korporativ maliyyə üzrə analitik;
- Maliyyə məsləhətçisi;
- Büdcə planlaşdırma üzrə məsləhətçi;
- Maliyyə məsləhətçisi;
- Startaplarda maliyyə rəhbəri;
- Biznes məktəblərində ixtisası/ixtisaslaşması üzrə müəllim və s. (2 illik Təhsil Proqramı üzrə)
- Elmi təşkilatlarda elmi işçi (2 illik Təhsil Proqramı üzrə).

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir;
6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər;
6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

Əlavə 1

**Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri**

**7004003 - Biznesin təşkili və idarə edilməsi (MBA) Maliyyə ixtisaslaşması üzrə** ***proqramın təlim nəticələri (PTN)*** aşağıdakılardır:

| Maliyyə (MBA) ixtisaslaşması üzrə proqramın təlim nəticələri (PTN) |
|---|
| 1. Büdcə tərtibinə və icrasına nəzarət edir |
| 2. Risk və gəlirlilik dərəcəsini qiymətləndirir |
| 3. İnvestisiya portfelini idarə edir |
| 4. Qərarvermə prosesində iştirak edir |
| 5. Korporativ maliyyəni idarə edir |
| 6. Rəqəmsal maliyyə texnologiyalarından istifadəyə nəzarət edir |
| 7. İnvestisiya və maliyyə strategiyaları hazırlayır və tətbiq edir |
| 8. Bynəlxalq maliyyə və valyuta əməliyyatlarını idarə edir |
| 9. Vergi yükünü optimallaşdırmaq üçün təkliflər verir |

Əlavə 2

## FƏNLƏR ÜZRƏ FƏNN TƏLİMİ NƏTİCƏLƏRİ (FTN)

## TƏDQİQAT YÖNÜMLÜ FƏNLƏR ÜZRƏ FƏNNLƏR ÜZRƏ

| |
|---|
| **"Tədqiqat metodları"fənni üzrə təlim nəticələri (FTN)** |
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3.** Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4.** Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq ede biləcək. |
| **"Akademik yazı və etika" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2. Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3. Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən \| (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4. Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5. Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6. Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| **"Tədqiqat analitikası" fənni üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. FTN 2. Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| FTN 3. Ferqli proqram təminatlarında ("Excel", "EViews", "SPSS", "Python", "R", "Matlab" və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| FTN 4. Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| FTN 5. Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| FTN 6. Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabatları və elmi sənədlər tərtib edə biləcək. |
| **"Elmi-pedaqoji təcrübə" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Ixtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |

| |
|---|
| FTN 2. Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3. Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4. Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından \| (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etməyi öyrənəcək. |
| FTN 5. Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6. Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |
| **"Elmi-tədqiqat təcrübəsi" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Ixtisas sahəsində aktual elmi-tədqiqat mövzularını müəyyənləşdirmək, tədqiqatın məqsəd və vəzifələrini dəqiq formalaşdırmaq bacarığına malik olacaq. |
| FTN 2. Konkret tədqiqat məqsədlərinə uyğun müasir elmi-tədqiqat metodlarını (situasiya analizi, əməliyyat-taktiki təhlil, modelləşdirmə, statistik metodlar və s.) seçmək və səmərəli tətbiq etmək bacarığına yiyələnəcək. |
| FTN 3. Əldə etdiyi eksperimental və nəzəri məlumatların işlənməsi, sistemləşdirilməsi, nəticələrin emal edilməsi, statistik analizinin aparılması və nəticələrin şərh olunması üzrə bacarıqlar əldə edəcək. |
| FTN 4. Aparılmış tədqiqatların nəticələrini proseslərin optimallaşdırılması, tətbiqi və innovativ texnologiyaların işlənib hazırlanması istiqamətində tətbiq etmək bacarığına malik olacaq. |
| FTN 5. Teədqiqat nəticələrini elmi məqalə, hesabat, dissertasiya formatında təqdim etmək, elmi konfrans və seminarlarda çıxış etmək, elmi diskussiyalarda iştirak etmək bacarığı əldə edəcək. |
| FTN 6. Tədqiqat fəaliyyətində elmi etika prinsiplərinə (plagiatın qarşısının alınması, düzgün istinad qaydaları, müəllif hüquqlarına hörmət və s.) əməl etməyi və elmi məsuliyyəti dərk etməyi öyrənəcək. |
| **"Magistrlik dissertasiyası" üzrə təlim nəticələri (FTN)** |
| FTN 1. Tədqiqat problemini əsaslandırmaq, məqsəd və vəzifələri dəqiq müəyyənləşdirmək, kompleks plan qurmaq, nəzəri və analitik üsullarla tədqiqatı tam həcmdə yerinə yetirmək bacarığına yiyələnəcək. |
| FTN 2. Ixtisas sahəsində elmi-nəzəri və praktiki problemləri dərindən təhlil etmək, təhlükəsizlik risklərinin qiymətləndirilməsi və operativ qərarların qəbulunda müasir elmi yanaşmaları tətbiq etməklə problemlərin müstəqil həllini təqdim etmək bacarığını nümayiş etdirəcək. |
| FTN 3. Eksperimental və nəzəri nəticələrin riyazi modelləşdirilməsi, sistemli təhlili, analiz edilməsi və ümumiləşdirilməsi üzrə səriştə qazanacaq. |
| FTN 4. Əldə olunan elmi nəticələrin ixtisas üzrə tətbiqini əsaslandırmaq, praktik tövsiyələr hazırlamaq və innovativ yanaşmalar təqdim etmək bacarığı əldə edəcək. |
| FTN 5. Dissertasiya işinin məzmununu elmi auditoriya qarşısında aydın, əsaslandırılmış və strukturlaşdırılmış formada təqdim etmək, müdafiə etmək və elmi müzakirələrdə iştirak etmək bacarığına yiyələnəcək. |
| FTN 6. Dissertasiya işində elmi etika və intizam qaydalarına riayət etmək, müəllif hüquqlarına hörmət, istinad qaydalarına əməl etmək və öz tədqiqat fəaliyyətinə məsuliyyətlə yanaşmaq bacarığını nümayiş etdirəcək. |

## MƏCBURİ FƏNNLƏR ÜZRƏ

### Liderlik və təşkilati davranış

| | |
|---|---|
| 1. | Tələbə **liderliyin və təşkilati davranışın nəzəri əsaslarını**, müxtəlif liderlik üslublarını və təşkilatlarda insan davranışının təsir mexanizmlərini mənimsəyir. |
| 2. | Tələbə **idarəetmədə effektiv liderlik bacarıqlarını və strateji qərarvermə prosesini** tətbiq edə bilir. |

| |
|---|
| 3. Tələbə **motivasiya, kommunikasiya və komanda işi prinsiplərini** öyrənir və onları real təşkilati mühitdə tətbiq edir. |
| 4. Tələbə **emosional zəka, etik davranış və peşəkar münasibətlərin idarə olunması** bacarığı qazanır. |
| 5. Tələbə **təşkilatdaxili konfliktlərin səbəblərini təhlil edir**, onların qarşısını alma və həll strategiyalarını müəyyən edir. |
| 6. Tələbə **təşkilat mədəniyyəti və dəyərlərinin formalaşması prosesində liderliyin rolunu** qiymətləndirir. |
| 7. Tələbə **dəyişikliklərin idarə olunması və innovativ liderlik yanaşmalarını** mənimsəyir, dəyişən mühitə adaptasiya bacarığı əldə edir. |
| 8. Tələbə **müasir liderlik modellərini (transformasiya, xidmət və rəqəmsal liderlik)** təhlil edir və təşkilati effektivliyi artırmaq üçün tətbiq edir. |

Bizness statistikası

| |
|---|
| 1. Tələbə **biznes statistikası və analitik təhlilin əsas anlayışlarını** mənimsəyir, statistik məlumatların növlərini və tətbiq sahələrini izah edə bilir. |
| 2. Tələbə **statistik məlumatların toplanması, qruplaşdırılması və vizuallaşdırılması** üsullarını tətbiq edərək, məlumat bazası formalaşdırma bacarığı qazanır. |
| 3. Tələbə **təsviri statistika göstəricilərindən (orta, median, dispersiya və s.)** istifadə etməklə biznes məlumatlarını təhlil edir və nəticələri interpretasiya edir. |
| 4. Tələbə **korrelyasiya və reqressiya analizlərini** tətbiq edərək, dəyişənlər arasında əlaqələri müəyyənləşdirir və biznes qərarlarını əsaslandırır. |
| 5. Tələbə **zaman sıraları və proqnozlaşdırma metodlarını** istifadə edərək iqtisadi və maliyyə göstəricilərinin gələcək dinamikasını müəyyənləşdirir. |
| 6. Tələbə **statistik proqram təminatlarından (Excel, SPSS və s.)** istifadə edərək real biznes məlumatları üzərində analiz aparır. |
| 7. Tələbə **statistik nəticələr əsasında elmi əsaslandırılmış qərarlar qəbul edir**, biznes proseslərində səmərəliliyin artırılması yollarını müəyyənləşdirir. |

Menecment iqtisadiyyatı

| |
|---|
| 1. Tələbə **menecment iqtisadiyyatının nəzəri əsaslarını və iqtisadi qərarvermə mexanizmini** mənimsəyir, idarəetmədə iqtisadi prinsiplərin rolunu anlayır. |
| 2. Tələbə **tələb və təklif qanunlarını, elastiklik anlayışını və bazar strukturunu** təhlil edir, bu bilikləri biznes qərarlarının qəbulunda tətbiq edir. |
| 3. Tələbə **istehsal və xərclər nəzəriyyəsini** tətbiq edərək, müəssisənin resurslarından səmərəli istifadə yollarını müəyyənləşdirir. |
| 4. Tələbə **qiymətqoyma strategiyalarını** və rəqabət şəraitində optimal qiymət səviyyəsinin müəyyən edilməsini öyrənir. |
| 5. Tələbə **makro və mikroiqtisadi göstəriciləri** təhlil edir və onların idarəetmə qərarlarına təsirini qiymətləndirir. |
| 6. Tələbə **rəqəmsallaşma və qlobal iqtisadi mühitdə idarəetmə qərarlarının qəbuluna** dair analitik və tənqidi düşünmə bacarığı formalaşdırır. |

Maliyyə uçotu (F3)

| | |
|---|---|
| 1. | Tələbə **maliyyə uçotunun məqsədi, prinsipləri və elementləri** barədə nəzəri və praktiki biliklərə yiyələnir. |
| 2. | Tələbə **mühasibat uçotu sisteminin quruluşunu və hesabatların hazırlanması mərhələlərini** anlayır və tətbiq edə bilir. |
| 3. | Tələbə **maliyyə əməliyyatlarının qeydiyyatını** beynəlxalq standartlara (MHBS/IFRS) uyğun şəkildə aparmaq bacarığı qazanır. |
| 4. | Tələbə **aktivlər, öhdəliklər, kapital, gəlir və xərclərin uçotu** üzrə əməliyyatları düzgün sənədləşdirir və hesabatlarda əks etdirir. |
| 5. | Tələbə **balans, mənfəət və zərər hesabatı, pul axını və kapital dəyişiklikləri hesabatlarını** tərtib edir və təhlil edə bilir. |
| 6. | Tələbə **maliyyə hesabatlarının analizi və interpretasiyası** əsasında müəssisənin maliyyə vəziyyəti və nəticələri barədə əsaslandırılmış qərarlar qəbul edir. |

Strateji idarəetmə və innovasiyalar

| | |
|---|---|
| 1. | Tələbə **strateji idarəetmənin əsas anlayışlarını, mərhələlərini və metodologiyasını** mənimsəyir, təşkilatın strateji məqsədlərini formalaşdırmağı öyrənir. |
| 2. | Tələbə **daxili və xarici mühitin strateji təhlilini** aparmaq, SWOT, PESTEL və Porterin beş qüvvəsi modellərindən istifadə etmə bacarığı qazanır. |
| 3. | Tələbə **strateji qərarların hazırlanması və həyata keçirilməsi prosesini** başa düşür, alternativ strategiyaların qiymətləndirilməsini həyata keçirir. |
| 4. | Tələbə **innovasiyaların idarə olunması və innovativ inkişaf strategiyalarını** formalaşdırmaq bacarığına malik olur. |
| 5. | Tələbə **rəqabət üstünlüyü yaratmaq və davamlı inkişaf strategiyalarını** tətbiq etmək üçün innovativ yanaşmalardan istifadə edir. |
| 6. | Tələbə **rəqəmsallaşma və texnoloji yeniliklərin strateji idarəetməyə təsirini** qiymətləndirir və müasir biznes mühitinə uyğun qərarlar qəbul edir. |

Korporativ maliyyə

| | |
|---|---|
| 1. | Tələbə **korporativ maliyyənin əsas anlayışlarını, məqsəd və funksiyalarını** mənimsəyir, maliyyə qərarlarının biznesin dəyərinə təsirini izah edə bilir. |
| 2. | Tələbə **kapitalın formalaşması, strukturunun optimallaşdırılması və dəyərinin hesablanması** prinsiplərini tətbiq edə bilir. |
| 3. | Tələbə **investisiya layihələrinin qiymətləndirilməsi metodlarını** (NPV, IRR, Payback və s.) öyrənir və səmərəli investisiya qərarları qəbul edə bilir. |
| 4. | Tələbə **risk və gəlirlilik arasında əlaqəni** təhlil edir, maliyyə risklərinin azaldılması və idarə edilməsi metodlarını tətbiq edir. |
| 5. | Tələbə **korporativ maliyyə bazarlarının və maliyyə alətlərinin fəaliyyətini** başa düşür və qərarvermədə istifadə edir. |
| 6. | Tələbə **rəqəmsal maliyyə texnologiyalarının və qlobal maliyyə trendlərinin** korporativ maliyyə idarəçiliyinə təsirini qiymətləndirə bilir. |

İnvestisiya və maliyyə strategiyaları

| | |
|---|---|
| 1. | Tələbə **investisiya fəaliyyətinin iqtisadi mahiyyətini və maliyyə strategiyalarının əsas prinsiplərini** mənimsəyir. |
| 2. | Tələbə **investisiya layihələrinin qiymətləndirilməsi metodlarını** (NPV, IRR, Payback Period və s.) tətbiq edir və layihələrin səmərəliliyini təhlil edir. |
| 3. | Tələbə **risk və gəlirlilik arasında optimal balansı müəyyənləşdirir** və portfel investisiyalarının idarə edilməsində müasir yanaşmaları tətbiq edir. |
| 4. | Tələbə **maliyyə bazarlarının və alətlərinin** (səhmlər, istiqrazlar, törəmə alətlər) fəaliyyətini anlayır və investisiya qərarlarında istifadə edə bilir. |
| 5. | Tələbə **şirkətlərin uzunmüddətli maliyyə strategiyalarını** hazırlayır, kapital strukturu və likvidlik idarəçiliyini təhlil edir. |
| 6. | Tələbə **qlobal maliyyə mühitinin və beynəlxalq investisiya trendlərinin** təsirini təhlil edir və strateji qərarların qəbulunda nəzərə alır. |

Rəqəmsal maliyyə texnologiyaları

| | |
|---|---|
| 1. | Tələbə **rəqəmsal maliyyə texnologiyalarının (FinTech) mahiyyətini və inkişaf tendensiyalarını** anlayır, onların maliyyə sisteminə təsirini izah edə bilir. |
| 2. | Tələbə **blokçeyn texnologiyası, kriptovalyutalar və rəqəmsal ödəniş sistemlərinin** işləmə prinsiplərini mənimsəyir və təhlil edə bilir. |
| 3. | Tələbə **rəqəmsal bankçılıq, onlayn kreditləşmə və elektron investisiya platformalarının** fəaliyyət mexanizmini öyrənir və tətbiq edir. |
| 4. | Tələbə **süni intellekt və böyük verilənlər analitikasının (Big Data)** maliyyə idarəetməsində tətbiq imkanlarını qiymətləndirir. |
| 5. | Tələbə **rəqəmsal maliyyə alətlərinin tənzimlənməsi, hüquqi və etik aspektlərini** təhlil edir. |
| 6. | Tələbə **rəqəmsal maliyyə innovasiyalarını tətbiq etməklə müəssisələrin maliyyə fəaliyyətinin səmərəliliyini artırmaq** bacarığı qazanır. |

Beynəlxalq maliyyə kredit münasibətləri

| | |
|---|---|
| 1. | Tələbə **beynəlxalq maliyyə münasibətlərinin mahiyyətini və qlobal maliyyə sisteminin strukturunu** mənimsəyir. |
| 2. | Tələbə **beynəlxalq kredit münasibətlərinin iqtisadi əsaslarını və maliyyə axınlarının formalaşma mexanizmini** izah edə bilir. |
| 3. | Tələbə **beynəlxalq maliyyə bazarlarının (kapital, valyuta, istiqraz bazarları)** fəaliyyət prinsiplərini və funksiyalarını təhlil edir. |
| 4. | Tələbə **beynəlxalq maliyyə təşkilatlarının (BVF, Dünya Bankı, AİB və s.) rolunu və onların iqtisadi inkişafa təsirini** qiymətləndirir. |
| 5. | Tələbə **valyuta münasibətləri, valyuta məzənnələri və valyuta siyasətinin idarə olunması mexanizmini** mənimsəyir. |
| 6. | Tələbə **xarici borclanma, beynəlxalq kreditlərin növləri və şərtləri** üzrə qərarvermə proseslərini anlayır və tətbiq edir. |

Əlavə 3

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

### Tədqiqat yönümlü fənlərin PTN-lərlə uyğunluq matrisi

| Tədris fəaliyyəti (fənn) | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 |
|---|---|---|---|---|---|---|---|
| Tədqiqat metodları | X | X | X | X | | X | X |
| Akademik yazı və etika | | | | X | | | |
| Layihələrin idarə olunması | X | X | X | X | X | X | X |
| Elmi-pedaqoji təcrübə | | | | X | X | | |
| Elmi tədqiqat təcrübəsi | X | X | X | X | | X | X |
| Magistrlik dissertasiyası | X | X | X | X | X | X | X |

- **Tədqiqat metodları** – tələbələrə analitik təhlil, risk və gəlirlilik ölçmələri, investisiya qərarları və strategiya tərtibatı kimi bacarıqları qazandırır (PTN 1-4, 6, 7).
- **Akademik yazı və etika** – tədqiqat hesabatlarının etik qaydalar çərçivəsində hazırlanmasını və qərarvermə prosesində etik məsuliyyətin nəzərə alınmasını təmin edir (PTN 4, 9).
- **Layihələrin idarə olunması** – maliyyə layihələrinin planlaşdırılması, risklərin idarə edilməsi və innovativ həllərin tətbiqi üçün əsas bacarıqları inkişaf etdirir (PTN 1-7).
- **Elmi-pedaqoji təcrübə** – analitik və idarəetmə qərarlarını pedaqoji müstəvidə izah və tətbiq bacarığını formalaşdırır (PTN 4-5).
- **Elmi tədqiqat təcrübəsi** – maliyyə modellərinin tədqiqi və tətbiqi üzrə praktiki bacarıqları möhkəmləndirir (PTN 1-4, 6-7).
- **Magistrlik dissertasiyası** – bütün təlim nəticələrinin inteqrasiyasını təmin edir, nəzəri biliklərin tətbiqini və orijinal tədqiqat aparmaq bacarığını nümayiş etdirir (PTN 1-9).

### Maliyyə (MBA) ixtisaslaşması üzrə PTN-lərin tədris fəaliyyətləri ilə uyğunluq matrisi

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1. Büdcə tərtibinə və icrasına nəzarət edir | PTN 2. Risk və gəlirlilik dərəcəsini qiymətləndirir | PTN 3. İnvestisiya portfelini idarə edir | PTN 4. Qərarvermə prosesində iştirak edir | PTN 5. Korporativ maliyyəni idarə edir | PTN 6. Rəqəmsal maliyyə texnologiyalarından istifadəyə nəzarət edir | PTN 7. İnvestisiya və maliyyə strategiyaları hazırlayır və tətbiq edir | PTN 8. Beynəlxalq maliyyə və valyuta əməliyyatlarını idarə edir | PTN 9. Vergi yükünü optimallaşdırmaq üçün təkliflər verir |
|---|---|---|---|---|---|---|---|---|---|
| Liderlik və təşkilati davranış | | | | X | X | | | | |
| Biznes statistikası | | X | X | X | | | X | | |
| Menecment iqtisadiyyatı | | X | | X | X | | X | | X |
| Maliyyə uçotu (F3) | X | | | | X | | | | X |
| Strateji idarəetmə və | | | | X | X | X | X | | |

| Tədris fəaliyyətinin (fənnin) adı | PTN 1. Büdcə tərtibinə və icrasına nəzarət edir | PTN 2. Risk və gəlirlilik dərəcəsini qiymətləndirir | PTN 3. İnvestisiya portfelini idarə edir | PTN 4. Qərarvermə prosesində iştirak edir | PTN 5. Korporativ maliyyəni idarə edir | PTN 6. Rəqəmsal maliyyə texnologiyalarından istifadəyə nəzarət edir | PTN 7. İnvestisiya və maliyyə strategiyaları hazırlayır və tətbiq edir | PTN 8. Beynəlxalq maliyyə və valyuta əməliyyatlarını idarə edir | PTN 9. Vergi yükünü optimallaşdırmaq üçün təkliflər verir |
|---|---|---|---|---|---|---|---|---|---|
| innovasiyalar | | | | | | | | | |
| Korporativ maliyyə | | X | X | X | X | | X | | |
| İnvestisiya və maliyyə strategiyaları | | X | X | X | X | | X | X | |
| Rəqəmsal maliyyə texnologiyaları | | | | | | X | | X | |
| Beynəlxalq maliyyə və kredit münasibətləri | | | | | | | X | X | |
| Qiymətli kağızlar bazarı | | X | X | | | | X | | |
| Maliyyə bazarları | | X | X | | | | X | X | |
| Vergi və vergiqoyma | X | | | | | | | | X |
| Maliyyə risklərinin idarə edilməsi | | X | X | X | | | X | | |
| Maliyyə hesabatlarının beynəlxalq standartları (MHBS) | X | | | | X | | | X | |
| Audit (ACCA tələbi) | X | X | | | X | | | X | X |

Razılaşdırıldı:

Tədris şöbəsinin müdiri
_________________f-r.ü.f.d.Leyla Ağamalıyeva

Beynəlxalq magistratura və Doktorantuara Mərkəzinin direktoru

_______________t.ü.f.d.,dos.dos.Nüşabə Quliyeva

Maliyyə və mühasibat kaferasının müdiri

______________i.e.n., dos.,dos. Nəriman Böyükkişi